# Milli özünüdərk prosesində mədəniyyət əsas amillərdən biri kimi

***Azərbaycan özünüidentifikasiyasının əsasında duran hansı simvollar vardısa, hamısı sovet rejimində və ideologiyasında bu və ya başqa dərəcədə zərbələr almışdı. İslam ateistik inkara məruz qalırdı və nəticədə, olsa-olsa, yas dininə çevrilmişdi. Türkçülük "Azərbaycan" ideyası altında kəskinliyini itirmiş, amorf simvola çevrilmişdi.***

Müasirlik və Avropaçılıq bolşevik Rusiyası ilə əvəz edilmişdi. Beynəlmiləlçilik ideyası ermənilərin Azərbaycana qarşı düşmən planlarını öncədən görüb priventiv ölçülərə əl atmağa qoymurdu. Azərbaycanın yurd identikliyinin əsasında duran tarixi vətən zorakılıqla senzuraya salınmış, indiki Quzey Azərbaycanın sərhədləri içində daraldılmışdı.

Belə bir vəziyyətdə yenə öygü ilə söyləmək olar ki, azərbaycanlıları əymək, sındırmaq sovetlərin pərdələnmiş rus siyasətinə müyəssər olmamışdı. 60-cı illərdə incəsənətdə Azərbaycan çox maraqlı təsvirlərin, baxışların hədəfi oldu. Səttar Bəhlulzadənin tabloları vətəni düşünmək istəyənlərə heyranlıq və qürur duyğuları verdi. Nəsr və poetik əsərlər dilin əsasında elə ifadəli diskurslar yaratdılar ki, bu da dolayısı milli özünüdərkə xidmət etdi. Azərbaycanlılar Rəsul Rzanın, İlyas Əfəndiyevin, Elçinin, Əkrəm Əylislinin, İsa Hüseynovun, Əli Kərimin, Fikrət Qocanın, Vaqif Səmədoğlunun və neçə-neçə başqa yazıçılarımızın çağdaş dünya ədəbiyyatı səviyyəsində yazılmış əsərlərinə görə milli bədii-poetik təfəkkürlə fəxr etdilər. 70-ci illərdə bu sənətkarların sırasına Ramiz Rövşən, Mövlud Süleymanlı, Vaqif Cəbrayılzadə və b. gənclər gələndə aydın oldu ki, sənətin milli özünübilimə xidmətini göstərən xətt qırılmayıb, əksinə, gəlişməkdə davam edir.

Sovet dönəmində azərbaycanlıların milli özünüdərkində çox önəmli yeri həm akademik musiqi, həm də muğam və aşıq musiqisi tutmuşdu. Muğamat həmişə azərbaycanlıların milli fəxrinə əsas verən sənət olmuşdur. Millətlər sırasında Azərbaycanın yerini təyin etmək istəyən bir çox ziyalılar muğamın misilsizliyini dünya üçün Azərbaycanın nailiyyəti sayırdı. Sovet çağında, xüsusilə, 60-cı illərdən başlayaraq incəsənətin müxtəlif növlərində, özəlliklə, ədəbiyyatda, təsviri sənətdə, musiqidə, teatrda maraqlı axtarışlar aparılmışdı. İncəsənətdə yüzlərlə əxlaqi situasiyalar, mənəvi suallar, tarixi hadisələr və materiallar da vardı ki, nə qədər ideoloji müddəalar işləsə də onların sayəsində milli özünüidentifikasiya üçün simvollar, faktlar qalereyası yaranırdı. Nizami Gəncəvidən, Füzulidən tədqiqatlar aparanda, təbii ki, ideoloji qaydalar tələb edirdi ki, tədqiqatçı bu şairlərin əsərlərində nəsə zəhmətkeş obrazı tapsın, insanın istismarına hiddət olduğunu sübut etsin və nəsə ateistik ünsürlər üzə çıxarsın. Orta əsrlər miniatür sənətindən söz açanda mütləq onda realistik elementlər də tapılmalıydı. Ancaq bütün bunlar ediləndən sonra keçmişin sənət əsərlərinin, mədəniyyət abidələrinin başqa yozumları, başqa açımları da olurdu. Bax, bu açımların sayəsində də həmin əsərlər milli özünüdərkin faktlarına, vasitələrinə çevrildilər. Azərbaycanlı "biz kimik?" sualının cavabında klassik poeziyanın şəxsiyyətlərini və əsərlərini düşünməklə, tarixi qəhrəmanların qalereyasını yaratmaqla, Azərbaycana aid tekstləri kodifikasiya etməklə milli mentalitetin kosmos prinsipində obrazını yaradırdı. Milli özünüdərkdən öncə gələn özünüidentifikasiya nələrlə eyniləşmək məsələsini qoyanda əgər bu eyniləşməli olaylar və faktlar azdırsa, milli özünüdərk də sısqa materialla təmin olunur. Əgər eyniləşmək üçün zəngin materiallar verilirsə, milli özünüdərk kosmik miqyasa səyahət xarakteri alır. İndi biz deyə bilərik ki, 70 illik sovet dönəmində Azərbaycan musiqisindən tutmuş ədəbiyyatınacan, teatrından tutmuş rəssamlığınacan bütün sənət növlərində elə əsərlər yaradılmışdır ki, onların çoxluğu, bolluğu böyük mənəvi dünya effekti yaratmışdı. Bu əsərlər Cahandar ağadan tutmuş Kollu Koxayacan, Oqtay Eloğlundan tutmuş Mehdi Hüseynzadəyəcən (Mixayloyacan) parlaq obrazlar qalereyasını verməklə yurddaşlarımıza əyani şəkildə göstərmişdi ki, Azərbaycan dünyası maraqlı şəxsiyyətləri yetişdirə bilər. Bu şəxslərin millilik parametrlərində ortaya çıxan cəhətləri aydın etmişdi ki, Azərbaycan özəlliyinin, Azərbaycan mentalitetinin, Azərbaycan əxlaqının və mənəviyyatının parlaq şəxsiyyətlər yaratmaq potensialı var. Eləcə də aydın etmişdi ki, parlaq şəxsiyyətlərə, maraqlı insanlara tələbatın ödənilməsi üçün Azərbaycanın ehtiyacı yoxdur ki, başqa xalqların sənətinə və mədəniyyətinə göz diksin.

Sovet ideologiyası milli keçmişlə bağlı kulturoloji araşdırmaların marksizmin istismar, azadlıq mübari-

zəsi, dinə qarşı hərəkatlar işığında aparılmasını təqdir edirdi. Bunun nəticəsidir ki, bütün Orta əsr Azərbaycan şairləri gizli ateistik meyillərdə bəlli olurdular. Bütün Orta əsr Azərbaycan şairləri zəhmətkeş xalqa sevgidə görünürdülər. Bütün Orta əsr Azərbaycan şairləri qadın azadlığının tərənnümçüsü kimi təqdim olunurdular.

Bax, ideoloji diktənin nəticəsi olan belə araşdırma paradiqmalarının fonunda milli keçmişə mənsub tekstlərdən milli mentalitetin dərinliklərinə gedilməsinə şübhə ilə yanaşılırdı, ona görə də Azərbaycanda bu istiqamətdə tədqiqatlar yalnız sovetlərin son onilliklərində ortaya çıxmışdı.

Sovet rejiminin daxili "qloballaşma proseslərində", yəni əsasən, ruslaşma, sonra isə sovetizm qəlibləri ilə millətlər arasındakı fərqlərin nivelizasiyasında bu proseslərə müqavimət göstərmək üçün Azərbaycanda bir neçə istiqamətdə iş görülmüşdü. Bu işlər, əslində, qeyri-rəsmi mədəniyyət, yəni KİV-ə, konfranslara, dövlət tədbirlərinə çıxmamış şəkildə geniş yer alsa da rəsmi mədəniyyətə çox az çıxırdı. Azərbaycan intellektualları, alimləri "sovet xalqı" ideyası altında millətlərin fərqlərinin aradan götürülməsinə qarşı millətimizin İslam identikliyini qoyurdular. Elmi-ateizm səviyyəsində İslama yetərincə ədəbsiz ittihamlar ünvanlanırdı və İslamın müdafiəsinə yol verilmədən ona ateist hücum üçün bütün şərait yaradılır, bütün mədəniyyət meydanları verilirdi. Belə bir şəraitdə kulturoloji, orientalist araşdırmalarda ayrıca İslam yox, İslamla çulğalaşmış mədəniyyətlə bağlı araşdırmalarda ateistik üslub ciddi, elmə yaraşmaz "propaqandaçılıq" yarlığını almağa başlamışdı. Azərbaycanda, xüsusilə, 70-ci illərdən müsəlman mədəniyyətinin tarixi nailiyyətlərini - özəlliklə elmdə, astronomiyada, təbabətdə, fəlsəfədə olan uğurlarını, Avropaya müsbət təsirini göstərən xarici araşdırmalara böyük maraq və sevgi yaranmışdı. Bu zaman Avropa romantiklərinin İslama, müsəlman dünyasına münasibəti də köməyə çatmışdı. XX əsrin əvvəllərindən Mirzə Cəlil, Sabir kimi yazarların, müasirləşmə ideoloqlarının müsəlman gerçəkliyinin tənqidindən, 20-ci illərin kobud ateizminin kinayə və istehzasından sonra, təbii ki, azərbaycanlılarda İslam özünüidentifikasiyası ilə bağlı kompleks yaranmalı idi. Bu mütəfəkkirlər də İslam özünüidentifikasiyasını nələrisə aşkar etmək üçün aparmışdılar. Ancaq bu nələrsə müsbət yox, mənfi keyfiyyətlər idi. Bəllidir ki, Əfqani və bəzi başqa intellektuallar "kəşf etmişdilər" ki, İslamda fatalizm, qəzavü-qədər İslam dünyasının ətalətinin əsas səbəblərindən olmuşdur. Çünki müsəlmanlar iradə azadlığına inanmadıqları üçün də öz talelərini öz əllərinə götürməmiş, onlarla bağlı məsuliyyət duymamış, təşəbbüskar olmamış və tənbəllik etmişlər. Bu mənada sanki Mirzə Cəlilin usta Zeynalı Əfqani ideyasını bədii dildə əyaniləşdirmək üçün yazılmışdı. Bəzi hallarda milli özünüidentifikasiya təkcə şərəfləndirmək yox, özünüdanlaq, özündə eyiblər tapmaq funksiyası da daşıya bilər. Daşımağına daşıyır. Ancaq adi eyibləri göstərməkdən fərqli olaraq eyibləri milli özünüidentifikasiya prinsipi ilə tapanda milli kompleks təhlükəsi yaranır. Çünki bu situasiyada eyiblər millətin mahiyyətindən, kimliyindən çıxarılır və kompleks də buradan yaranır.

Təxminən 70-ci illərdən Azərbaycanda əsrin əvvəllərindən verilmiş milli özünüidentifikasiyanın o biri komponenti də ciddi araşdırmaların obyekti oldu. Biz türkçülüyü nəzərdə tuturuq. Bütün sovet dövründə ölkəmizdə və Moskvada, Alma-Atada, hətta Tiflisdə də türk dilçiliyi gəlişdirilmişdi. Rusca "Sovet türkologiyası" dərgisinin Azərbaycanda çıxması da göstərirdi ki, artıq, sovet ideologiyası türkologiyanın bütün sovet məkanında ciddi sahəyə çevrilməsi ilə barışıb. 70-ci illərin milli özünüdərk baxımından unikallığı başqa aspektdə idi. Bütün SSRİ-də ideoloji yasaqlar mühitində canlı düşüncələr üçün birdən-birə maraqlı bir sahə açılmışdı. Biz mifologiyanı və başqa arxaik materialları deyirik. Az qala bütün istedadlı yazarlar, semiotiklər, strukturalistlər bu və ya başqa şəkildə mifologiya ilə məşğul olmuşdular. Bax, bu mühitdə birdən-birə professor Mirəli Seyidovun məşhur tədqiqatları ortaya çıxdı. Bu tədqiqatlar etimoloji, kompravistik metodlardan istifadə edərək türkün sahib olduğu simvolları sərgiləyir, başqalarına, məsələn, ermənilərə, farslara, gürcülərə aid sayılan materiallarda türk izlərini, faktlarını üzə çıxarırdı.

80-ci illərdən başlayaraq Azərbaycan türkçülüyündə ermənilərlə gizli mübahisə və bu mübahisənin gətirdiyi mənəvi mücadilə sanki aşkarlıq çağından başlayaraq Azərbaycana təcavüz edəcək erməni millətçilərinin hərəkətlərinin proqnozundan doğmuşdu. Bir çox tanınmış dilçilər, filoloqlar, məsələn, Tofiq Hacıyev, Kamil Vəli Nərimanoğlu, Firidun Cəlilov (Ağasıoğlu), Aydın Məmmədov həmin mücadilədə iştirak edərək türklərin Azərbaycanın avtoxton əhalisi olması haqqında yazılar yazmağa başladılar. Onların sayəsində türk dili izləri, nişanələri eramızdan öncəki əsrlərdən də tapıldı. Aydın Məmmədovun təşəbbüsü ilə Şumer və Azərbaycan dillərində tapılan linqvistik paralellər çox önəmli mənəvi situasiya yaratdı. Beləcə, azərbaycanlılar öz dillərinə və bu dillə bağlı mental dünyaya gömüləndə oradan Şumerlərə, Çinə, Avesta dünyasına, hətta Qurani-Kərimə gedib çıxdılar.

**Nigar ƏFƏNDİYEVA,**
**fəlsəfə elmləri namizədi,**
**dosent**